# “91-lər”dən biri “Yeni Azərbaycanda”

## Redaksiyamıza gələn qonaq Heydər Əliyevlə bağlı xatirələrini bölüşdü

Bu gün “Yeni Azərbaycan” qəzetinin redaksiyasına siyasi elmlər üzrə fəlsəfə doktoru, Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının və “91-lər”dən biri, Əməkdar jurnalist Tahir Məmmədov qonaq gəlib. Yeni Azərbaycan Partiyasının yaranmasının 29-cu ildönümü ərəfəsində baş tutan görüşdə partiyanın qurucusu, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəldiyi günlər, onunla Naxçıvanda keçirilən görüşlər barədə xatirələr yer aldı. Tahir Məmmədov Ümummilli Liderin indiyə qədər dərc edilməmiş fotoşəkillərini redaksiyamıza təqdim etdi.

“Bu gün partiyamızın yaranmasının 29 illiyi ilə bağlı tədbir keçirdik. Tədbirdə partiyamızın yaradıcısı Ulu Öndər Heydər Əliyevin xatirəsi hörmətlə yad edildi. Müxtəlif çıxışlar dinlənildi, bunu 29 illik fəaliyyətimizin hesabatı da adlandırmaq olar.

Yeni Azərbaycan yarandığı gündən hakim partiya olmağı bacardı, xalqa qucaq açdı. Müstəqillik illərində






ölkəmizdə çoxlu sayda siyasi partiyalar fəaliyyətə başladı və biz bu yolları ümumi, milli mövqeyimizdən çıxış edən partiyaların hər biri ilə qardaş kimi yeridik. Onların inkişafını qısqanmadıq. Təbii ki, dövlətçiliyimizə qarşı yönələn, xarici qüvvələrdən güc alan partiyalar istisna olmaqla”, - deyə qocaman jurnalist xatırlatdı.

O, “91-lər”in yarandığı günləri xatırlayaraq dedi:

“Bu hərəkat adını 1992-ci ildə Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevin Azərbaycanda hakimiyyət uğrunda açıq və fəal mübarizəyə səsləyən, onun hakimiyyətə qayıdışı üçün müraciətə imza atmış 91 nəfər tanınmış ziyalısından aldı.

“91-lər” müraciətdə ölkəyə rəhbərlik edəcək həqiqi bir lideri Heydər Əliyevin simasında gördülər, bəyan etdilər ki, çətin, məsuliyyətli dövrdə respublikada rəhbərliyə yalnız Heydər Əliyev kimi güclü Lider qadirdir və onun hakimiyyətə gəlməsində israrçı oldular. Heydər Əliyev ölkənin ziyalılarına, elm və incəsənət xadimlərinə yüksək dəyər verən, çoxuzaq görən şəxs idi. O zaman Naxçıvan Ali Sovetinin sədri idi. Milli Məclisə deputat kimi gəldi və çox az zaman sonra biz onun Azərbaycanı alovların arasından çəkib çıxarmasının şahidi olduq”, - deyə müsahibimiz qeyd edir.

29 il ərzində ölkədə baş verən dəyişikliklər göz önündədir, buna səbəb, bu illər ərzində partiyanın başında iki böyük siyasi dühanın, öncə Heydər Əliyevin, sonra Müzəffər Prezidentimiz İlham Əliyevin dayanmasıdır.